# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Raritet (nadir) avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ərazisinə idxal olunması və gömrük rəsmiləşdirilməsinə dair Qayda»nın təsdiq edilməsi barədə

# Qərar № 188

***Bakı şəhəri, 28 oktyabr 2010-cu il***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 mart tarixli, 45 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan (idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması üzrə Tədbirlər Planı»nın 4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1 «Raritet (nadir) avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ərazisinə idxal olunması və gömrük rəsmiləşdirilməsinə dair Qayda» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 oktyabr 2010-cu il, № 10 (160), maddə 916) («VneshExpertService» LLC).***

***13 sentyabr 2012-ci il tarixli, 201 nömrəli Qərara əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2010-cu il 28 oktyabr tarixli,*
*188 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Raritet (nadir) avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ərazisinə idxal olunması və gömrük rəsmiləşdirilməsinə dair

# Qayda

1. Bu Qayda «Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan (idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması tədbirləri barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 mart tarixli, 45 nömrəli qərarına, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq hazırlanmışdır.

2. Bu Qayda raritet (nadir) avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmasını və gömrük rəsmiləşdirilməsini tənzimləyir.

3. Raritet (nadir) avtonəqliyyat vasitələri - Azərbaycan Respublikasının gömrük ərazisinə mühərriki, banı və şassisi orijinal vəziyyətdə olan və ya orijinal vəziyyətə gətirilmiş və ölkənin gömrük sərhədini keçənədək zavod buraxılış tarixindən 40 (qırx) ildən çox keçmiş avtonəqliyyat vasitələridir.

4. Azərbaycan Respublikasının gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılan (idxal olunan) raritet (nadir) avtonəqliyyat vasitələrinə «Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan (idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması tədbirləri barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 mart tarixli, 45 nömrəli qərarının 1-ci bəndi şamil edilmir.

5. Raritet (nadir) avtonəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılarkən (idxal olunarkən), mənşə ölkəsindən və gömrük dəyərindən asılı olaraq, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilik aktlarına uyğun xarici-iqtisadi fəaliyyətin mal nomenklaturasında nəzərdə tutulmuş qaydada gömrük ödənişləri alınır.

6. Raritet (nadir) avtonəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi Azərbaycan Respublikasının gömrük sərhədini keçərkən seçilmiş gömrük *prosedurunun* müddəalarından irəli gələn tələblərə uyğun olaraq aparılır.

© *«VneshExpertService» LLC*